**Azərbaycan Texniki Universitetinin "Mexatronika" kafedrasının müdiri İftixar Qurbanəli oğlu Çələbinin hazırladığı "Ötürücü mexanizmlərin etibarlığı" adlı monoqrafiyaya**

# RƏY

Çələbi İ.Q. tərəfindən hazırlanan monoqrafiya maşın və avadanlıqların intiqal sistemlərində istifadə olunan ötürücü mexanizmlərin etibarlıq göstəricilərinin qiymətləndirilməsi məsələsinə həsr olunmuşdur. Ötürücü mexanizmlər müasir maşın və qurğularda enerji mənbəyindən enerjini icraçı orqana ötürən əsas komponentlər olduğu üçün onların etibarlıq göstəricilərinə çox yüksək tələblər qoyulur. Ona görə də ötürücü mexanizmlərin etibarlığının qiymətləndirilməsi məsələsi böyük aktuallığa malikdir.

Təqdim olunan monoqrafiya 7 fəsildən ibarət olmaqla, A5 formatda yığılmış 379 səhifəlik həcmə malikdir. Monoqrafiyada ötürücü mexanizmlərin ümumi təsnifatı verilmiş, onların əsas işçi elementlərinin sıradan çıxma halları analiz edilmişdir. Təqdim olunan kitabda diqqət çəkən əsas məsələlərdən biri ondan ibarətdir ki, burada ötürücü mexanizmlərin etibarlığının qiymətləndirilməsinə sistemli şəkildə baxılmışdır. Müasir mexatron strukturlu ötürücü mexanizmlərin etibarlığının qiymətləndirilməsi üçün yeni statistik modellər təklif olunmuş və bu modellərin praktikada tətbiqi araşdırılmışdır. Monoqrafiyada dişli çarx ötürmələrinin əsas işçi elementlərinin uzunömürlüyünün müxtəlif işgörmə qabiliyyəti meyarlarına görə müqayisəli analizi aparılmışdır. Bu analizin nəticəsi olaraq müəyyən istismar dövründən sonra dişli çarxların qeyri-işçi profilindən istifadə edilərək ötürmənin uzunömürlüyünün artırılması üsulları araşdırılmışdır. Kitabda həmçinin aradan qaldırılan və aradan qaldırıla bilməyən imtinaların eyni zamanda nəzərə alınması şərti ilə intiqal sisteminin etibarlığının qiymətləndirilməsi məsələsinə baxılmışdır. Bu analiz müəyyən istismar dövrü ərzində ötürmə sisteminin əsas komponentlərinə olan tələbatın daha dəqiq təyin olunmasına imkan verir.

Qeyd olunanları və təqdim olunan monoqrafiyanın qoyulan tələblərə uyğun olaraq yüksək səviyyədə hazırlanmasını nəzərə alaraq İftixar Qurbanəli oğlu Çələbi tərəfindən təqdim edilən "Ötürücü mexanizmlərin etibarlığı" adlı monoqrafiyaya qrif verilməsini və çap olunmasını tövsiyə edirəm.

**Azərbaycan Dövlət İqtisad Universitetinin**
**"Mühəndislik və tətbiqi elmlər"**
**kafedrasının professoru, t.e.d.** **Z. Y. Aslanov**

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ UNEC PUBLİK HÜQUQİ ŞƏXS ELMİ KATİB
UNEC ÜMUMİ ŞÖBƏ

İmzanı təsdiq edirəm.